# Cümhuriyyətin kürəyinə saplanan bıçaq - 27 aprel işğalı



Elşən Mirişli
Gəncə şəhəri, tarixçi

***Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti 1918-ci il mayın 28-dən iyunun 16-dək Tiflisdə,iyunun 16-dan sentyabrın 17-dək Gəncədə, sentyabrın17-dən 1920-ci il aprelin 27-dək Bakıda fəaliyyət göstərmişdi. Sovet Rusiyası Azərbaycan Cümhuriyyəti yarananda ona düşmən münasibət göstərirdi. Rəsmi olaraq tanımaqdan imtina edirdi.1920-ci il 2 yanvar tarixində Sovet Rusiyası Denikinə qarşı birgə mübarizə aparmaq təklifi haqqında Azərbaycan Cümhuriyyətinə birinci nota verdi.1920-ci il 14 yanvar tarixində Fətəli xan Xoyski Rusiyanın Denikinlə mübarizəsinin onun daxili işi olması haqqında Rusiya xarici işlər naziri Q.Çiçerinə cavab notası verdi.1920-ci il 23 yanvar tarixində Sovet Rusiyası Azərbaycan hökumətinə ikinci nota verdi.***

1920-ci il 11-12 fevral tarixlərində Fətəli xan Xoyski Rusiya xarici işlər naziri Q.Çiçerinə Azərbaycanın suverenliyinin tanınması haqqında cavab notası göndərdi. Aprel işğalı ərəfəsində bir neçə partiya-"İttihad","Sosialistlər" və "Əhrar" birləşərək Hökumətə etimadsızlıq göstərdilər və bununla da XI Qırmızı Ordunun işğal hücumu ərəfəsində hakimiyyət böhranını gücləndirdilər.1920-ci il aprelin 15-də Aslan bəy Qardaşov "Əhrar"partiyası nümayəndələrinin koalisyon hökumətdən çıxması barədə bəyanat verdi.1920-ci ilin 15 aprelində Fətəli xan Xoyski Rusiya xarici işlər naziri Q.Çiçerinə Rusiya qoşun hissələrinin Azərbaycan sərhədlərinə cəmləşməsi ilə bağlı Azərbaycan dövlətinin narahatlığını ifadə edən nota verdi.***Bundan sonra "İttihad" və "Əhrar" partiyaları Məmmədhəsən Hacinskinin baş nazir təyin olunmasına və bolşeviklərlə birgə Hökumətin yaradılmasına çalışdılar.Bolşeviklər hökumətin tərkibində iştirakdan imtina etdilər.1920-ci il martın 30-da Məmmədhəsən Hacinskiyə hökumətin formalaşdırılması tapşırılmışdı.Məmmədhəsən Hacinski Hökumətı formalaşırmağın mümkün olmadığını aprelin 22-də Azərbaycan Parlamentinə bildirdi. Məmmədhəsən Hacinski Sovet Rusiyası kəşfiyyatı ilə bağlı olduğu üçün Hökuməti formalaşdırmamışdı.***

1920-ci il aprelin 27-də Azərbaycan rus ordusu və bolşevikləri tərəfindən işğal edilmişdi.1920-ci il aprelin 26-dan 27-nə keçən gecə Dərbənd istiqamətindən Yalama yolu ilə 70 min nəfərlik rus qoşunları Azərbaycan sərhədlərini keçdilər.Azərbaycan Xalq Cümhuriyyəti ordusunun 1500-ə yaxın əsgəri də qəhrəmancasına döyüşüb,bolşeviklərə qarşı mübarizə aparırdılar.Samur sərhəd qoşunları cəmi 1500 əsgərdən ibarət olduğu üçün rus qoşunlarını durdura bilmədi.Bu 1500 qəhrəman Azərbaycan əsgəri Müdafiə nazirinin əmri olmadan qəhrəmancasına mübarizə aparmışdılar.Əlağa Şıxlinskinin əmri ilə sökülmüş dəmir yolu xəttinin bərpası rus qoşunlarına sürəti artırmaq imkanı verdi.Azərbaycanda ruslar yalan təbliğat apararaq bildirirdilər ki, guya XI Qırmızı Ordu komandanı Necati bəy adındakı şəxs Osmanlı İmperatorluq ordusu zabitidir. Rus ordusu Azərbaycana guya Anadolunu xilas etmək üçün gəlib.Bu zaman Bakı şəhərinin mühafizəsinə Osmanlı İmperatorluq ordusunun zabitlərinin başçılıq etdiyi "Yardım alayı"cavabdeh idi. "Yardım alayı" şəhərin müdafiəsindən imtina etdi.Eyni vəziyyət Osmanlı zabitləri tərəfindən idarə olunan zirehli avtomobillər və Azərbaycan hərbi donanmasında xidmət edən Osmanlı zabitləri tərəfindən təkrarlandı.Xəlil Paşanın tövsiyyəsi ilə Bakıda könüllü ordu komandanlığına (partizan mübarizəsi üçün yaradılan xalq qoşunu)Baha Səid bəy təyin edilmişdi. Baha Səid Azərbaycan ordusunu Azərbaycan hökuməti əleyhinə istifadə edib Bakını müqavimətsiz ruslara təslim etmişdi. Son olaraq Azərbaycan hökuməti belə qərar verir ki, Hökumət Bakıdan Gəncəyə çəkiləcək. Rus ordusu ilə müharibəyə Gəncədə başlayacaqlar. Hökumətin Gəncəyə köçürülməsi milli müqavimətin təşkili üçün maliyyə vəsaitinə ehtiyac vardı.Azərbaycan dövləti Mərkəzi Bankın Gəncə şöbəsinə 100 milyon manat göndərilməsi əmrini verir.Pul yüklənmiş qatar hərəkət edən zaman Azərbaycan Parlamentinin mühafizə alayının Türkiyəli komandiri Xalid bəy vağzala gələrək qatarın hərəkətini dayandırır.Xəlil Paşanın təsiri altında olan Osmanlı zabitləri Azərbaycan hökumətinə qarşı çıxırdılar.***Bolşevik Rusiyası bu Osmanlı zabitlərini gizli olaraq Azərbaycandakı kəşfiyyatı vasitəsilə maliyyələşdirirdi.Azərbaycan hökumətinin onlara ayırdığı maaşdan iki, üç dəfə artıq pulla təmin edirdi. Yalnız Nuru Paşanın təsiri altında olan Osmanlı zabitləri Azərbaycan dövlətinə sadiq idilər.Xəlilçilər Nuru paşanın təsiri altında olanlardan çox idi.Xəlil Paşa Ənvər Paşa və Nuru Paşanın əmisi idi. Xəlil Paşa Rus kəşfiyyatına birbaşa bağlı olan general idi.***

1920-ci il aprelin 27-də Leninin tərəfindən Moskvada Nəriman Nərimanovun sədrliyi ilə Azərbaycan Müvəqqəti İnqilab Komitəsi yaradıldı.***Tərkibinə Nəriman Nərimanovdan başqa Qəzənfər Musabəyov,Həmid Sultanov, Dadaş Bünyadzadə, Mirzə Davud Hüseynov və Əliheydər Qarayev daxil idi.Komitənin yalnız Azərbaycan Türklərindən çıxan kommunistlərdən təşkil olunması təbii ki,gözdən pərdə asmaq məqsədi güdürdü. Aprelin 27-də rus qoşunları və Azərbaycan bolşeviklər i Azərbaycan Xalq Cümhuriyyəti hökumətinə hakimiyyəti təhvil vermək haqqında ultimatum verdi.Ultimatumu özünü "Sovet Azərbaycanının Qırmızı Donanmasının komandanı,mühəndis kimi təqdim edən Çingiz İldırım imzalamışdı.***Çingiz İldırımı heç kim belə vəzifəyə təyin etməmişdi-aprelin sonunadək bu vəzifə ümumiyyətlə təsis olunmamışdı.May ayında bu vəzifənin ilk daşıyıcısı Fyodor Raskolnikov olmuşdu.Azərbaycan Parlamenti 27 aprel 1920-ci ildə son iclasını keçirərək hakimiyyətin aşağıdakı şərtlərlə Azərbaycan İnqilab Komitəsinə verilməsi barədə qərar qəbul etdi.Bu qərarı hökuməti Gəncəyə köçürmək üçün hazırladıqları qatarı Azərbaycan Parlamentinin mühafizə alayının Türkiyəli komandiri Xalid bəyin öz əsgərləri ilə qatarı dayandırmasından sonra qəbul etməyə məcbur olmuşdular. Xalid bəy rus ordusunun Anadoluya yardım üçün Azərbaycana gəldiyi fikrini irəli sürürdü. Bu şərtlərlə hakimiyyət Azərbaycan kommunistlərinə verilmişdi:

1.Rus ordusu Bakıya daxil olmadan dəmir yolu ilə birbaşa Anadolunun imdadına gedəcək;

2.Azərbaycanın istiqlalı və ərazi bütövlüyü hər cür təcavüz və ilhaqdan qorunacaq;

3.Azərbaycan ordusu buraxılmayacaq;

4.Azərbaycanın siyasi partiyalarının azadlıq və sərbəstliyi mühafizə ediləcək;

5.Keçmiş dövlət xadimləri, Hökumət üzvləri və millət vəkillərindən heç bir kəs siyasi cinayətdə ittiham edilməyəcək, dövlət idarələri qulluqçularının iş yerləri saxlanılacaq,yalnız rəhbər vəzifəli şəxslər dəyişdiriləcək;

6.Azad şəraitdə toplanacaq Azərbaycan şuraları (Azərbaycan Parlamenti) hakimiyyətin idarə formasını təyin edəcək.

27 aprel işğalı 70 min nəfərlik XI Rus Qırmızı ordusunun əvvəlcədən və planlı surətdə hazırlanmış,"ildırım sürətli öldürücü" yürüşü nəticəsində baş verdi.Azərbaycan ordu hissələrinin əksəriyyətinin Qarabağda erməni üsyanını yatırmaq və erməni ordusuna qarşı döyüşmək üçün göndərildiyi üçün Bakı asanlıqla ələ keçirildi.1920-ci ilin aprelindən1921-ci ilin avqustuna qədər Azərbaycanda rus əsgərləri tərəfindən törədilən qırmızı terror nəticəsində 48 min Azərbaycan türkü öldürülmüşdü. Paris sülh konfransındakı Azərbaycan nümayəndəliyi Azərbaycanın işğalını və Cümhuriyyətin devrilməsini xəbər tutan kimi, aprelin 28-də San-Remo konfransına bu barədə nota təqdim etdi.Lakin nə bu,nə də sonrakı müraciətlər heç bir nəticə vermədi.Dünyanın aparıcı dövlətləri tərəfindən tələb edilən Rusiyaya təzyiq edib Azərbaycanı tərk etməyə məcbur etmək cağırışları nəticəsiz qaldı.***1920-ci il mayın1-də rusların Volqa-Xəzər donanmasının gəmiləri Bakı limanına daxil oldu.1920-ci il mayın 3-də və 4-də Lənkərana və Astaraya hərbi dəniz desantı çıxarıldı.1920-ci il mayın 1-də rus ordusu Gəncəyə daxil oldu. Mayın 5-də XI Ordunun süvariləri Qazaxa, mayın 7-də Yevlaxa daxil oldu. Azərbaycan Cümhuriyyətinin ərazisi 113,9 min kv km-ə bərabər idi (o cümlədən mübahisəsiz ərazi 97,3min kv km; mübahisəli ərazi 16.6 min kv.km idi). 23 ay fəaliyyət göstərməsinə baxmayaraq Azərbaycan dövlətçilik tarixində Azərbaycan Xalq Cümhuriyyəti xüsusi yer tutur.***



*Yazı Ortaq Dəyərlər İctimai Birliyinin Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə icra etdiyi "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi çərçivəsində milli dövlətçilik ideyalarının təbliği" layihəsi əsasında dərc olunur*